Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

Swiss Confederation

Economic Research Center

EDF SBIIYF

# "Azərbaycanda inkişafı təşviq etmək üçün müzakirə platforması“ layihəsi çərçivəsində “Azərbaycan 2020: Gələcəyə baxiş” İnkişaf Konsepsiyasının **4-cü istiqamətinin (“Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru”)** icrasının qiymətləndirilməsi üzrə əldə edilmiş nəticələrin **TƏQDİMATI**

Qubad İbadoğlu

Bakı Holiday İnn, 20 oktyabr 2016-cı il

# Təqdimatın quruluşu

- Kəmiyyət qiymətləndirilməsi
- Keyfiyyət diymətləndiməsi
- *Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması*
- *İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı*
- *Elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi*
- Nəticə və tövsiyələr

# Qlobal rəqabətlilik indeksinin dinamikası 2012-16-ci illər üzrə

| | Qlobal rəqabətlilik indeksi | | Ölkələrin sayı |
|---|---|---|---|
| | Reytinq | Xal | |
| 2015-16 | 40 | 4.5 | 138 |
| 2014-15 | 38 | 4.5 | 144 |
| 2013-14 | 39 | 4.5 | 148 |
| 2012-13 | 46 | 4.4. | 144 |

# Qlobal rəqabətlilik indeksi

| | Ümumi qiymətləndirmə | | Baza tələbləri | | Artan səmərəlilik | | İnnovasiya və incəlik amilləri | |
|---|---|---|---|---|---|---|---|---|
| | Reytinq | Xal | Reytinq | Xal | Reytinq | Xal | Reytinq | Xal |
| 2015-16 | 40 | 4.50 | 43 | 4.92 | 69 | 4.05 | 66 | 3.59 |
| 2014-15 | 38 | 4.53 | 45 | 4.93 | 71 | 4.08 | 72 | 3.59 |
| 2013-14 | 39 | 4.51 | 44 | 4.90 | 66 | 4.09 | 66 | 3.71 |

# Baza tələbləri

| | Institutlar | | Infrastruktur | | Makroiqtisadi şərait | | Səhiyyə və baza təhsili | |
|---|---|---|---|---|---|---|---|---|
| | Reytinq | Xal | Reytinq | Xal | Reytinq | Xal | Reytinq | Xal |
| 2015-16 | 64 | 3.94 | 65 | 4.15 | 10 | 6.35 | 102 | 5.22 |
| 2014-15 | 60 | 3.96 | 70 | 4.12 | 9 | 6.41 | 104 | 5.24 |
| 2013-14 | 59 | 4.06 | 69 | 4.06 | 8 | 6.42 | 109 | 5.07 |

# Artan səmərəlilik

| | Ali təhsil və təlim | | Əmtəə bazarının səmərəliliyi | | Əmək bazarının səmərəliliyi | | Maliyyə bazarının inkişafı | | Texnoloji hazırlıq | | Bazarın ölçüsü | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Reytinq | Xal | Reytinq | Xal | Reytinq | Xal | Reytinq | Xal | Reytinq | Xal | Reytinq | Xal |
| 2015-16 | 89 | 3.9 | 66 | 4.31 | 30 | 4.57 | 114 | 3.33 | 57 | 4.26 | 67 | 3.9 |
| 2014-15 | 90 | 3.9 | 72 | 4.31 | 33 | 4.59 | 89 | 3.77 | 56 | 4.26 | 72 | 3.66 |
| 2013-14 | 87 | 4.0 | 71 | 4.27 | 30 | 4.72 | 88 | 3.8 | 50 | 4.17 | 72 | 3.6 |

# İnnovasiya və biznes Biznes zərifliyi

| | Biznes zərifliyi | | İnnovasiya | |
|---|---|---|---|---|
| | Reytinq | Xal | Reytinq | Xal |
| 2015-16 | 73 | 3.86 | 61 | 3.33 |
| 2014-15 | 80 | 3.86 | 59 | 3.33 |
| 2013-14 | 70 | 3.97 | 51 | 3.4 |

# İqtisadi inkişaf səviyyəsi

**Xammal təmayüllü**

- 35 iqtisadiyyat

**Səmərəlilik təmayüllü**

- 31 iqtisadiyyat

**İnnovativ təmayüllü**

- 38 iqtisadiyyat

- *16 iqisadiyyat, o cümlədən Azərbaycan iqtisadiyyatı 1-dən 2-ci mərhələyə, 20 iqtisadiyyat 2-dən 3-cü mərhələyə keçir.*

# Keyfiyyət qiymətləndirməsi

- “Azərbaycan 2020: Gələcəyə Baxiş” İnkişaf Konsepsiyasi
- “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”

# Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri və hədəfləri

- Strateji yol xəritəsinin prioritet istiqamətləti :

  *8 sektor (4 istehsal sektoru: nef-tqaz (kimya məhsulları daxil olmaqla), kənd təsərrüfatı, istehlak malları istehsalı, ağır sənaye və maşınqayırma; 2 xidmət sektoru: ixtisaslaşmış turizm, logistika və ticarət və 2 sosial sektor: uyğun qiymətə mənzillər və kompleks məsələ kimi peşə təlimləri).*

- Strateji yol xəritəsinin hədəfləri :

- *İxracda rəqabətliliyin və birbaşa xarici investisiyaların (BXİ) artırılması;*
- *Daxili bazar üçün vacib olan sektorlarda səmərəliliyin yüksəldilməsi və idxalın yerli istehsalla əvəzlənməsi;*
- *İqtisadi artımın dayanıqlılığının təmin olunması;*
- *Sosial rifah və inklüzivliyin sosial sektorlara investisiyalar yolu ilə artırılması (məsələn, uyğun qiymətə mənzillər və peşə təlimləri).*

# 4. Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru

4.1. Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması ;

4.2. İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı ;

4.3.elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi.

# 4.1. Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması (İnstitutsional çərçivə - tənzimləyici orqanlar)

- Azərbaycan Respublikası Prezidentinin İqtisadi islahatlar üzrə köməkçisi institutunun yaradılması
- Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması
- Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması

# 4.1. Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması

(İnstitutsional çərçivə - hüquqi aspektlər)

- Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı
- "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman
- **"**İcra hakimiyyəti orqanlarının və dövlət büdcəsindən maliyyələşən təşkilatların fəaliyyətində satınalmaların səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Fərman
- 2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri
- Vergi orqanlarının büdcədənkənar fondunun formalaşdırılması və onun vəsaitlərindən istifadə Qaydası

# 4.2. İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı

*(İnsitutsional və hüquqi çərçivə)*

- “Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” Sərəncam
- Ərzaq məhsullarının tədarükü və təchizatı” Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında Fərman
- “Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında”  Sərəncam
- “Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında”  Sərəncam
- Azərbaycan Respublikasının Turizm Şurası yaradılması

# 4.3. Elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi

- 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı
- İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu

# NƏTİCƏ

Hazırda maliyyə-bank sektorunda resurs çatışmazlığı, büdcənin formalaşdırılmasında yaranan çətinliklərlə yanaşı, onun xərclərinin səmərəliliyinin artırılması istiqamətdində ciddi tədbirlər həyata keçirilməyib. Bankların və sığorta şirkətlərinin kapitallaşması istiqamətində Konsepsiyanın qəbulundan əvvəl başlamış siyasət davamlı xarakter almayıb və beləliklə də maliyyə, bank və sığorta sektoru milli iqtisadiyyatın zəif həlqəsinə çevrilib. Kredit qoyuluşlarının azalması, əmanətlərin banklardan geri çəkilməsi bütövlükdə bank sisteminin rəqabət qabliyyətini aşağı salıb ki, bu da milli iqtisadiyyatın rəqabətliliyinin qorunmasında ciddi çətinliklər yaradıb. DTT-yə üzvlüyün gecikdirilməsi, bəzi idxal mallarına tətbiq olunan idxal rüsumlarının kəskin artırılması ilə daxili bazarın qorunması istiqamətində məqsədli siyasət milli istehlakçıların rəqabətə dözümlülüyünü aşağı salır.

# NƏTİCƏ
(kəmiyyət göstəriciləri)

- Bu ilin ilk 9 ayında ixracın strukturunda xam neft, təbii qaz, neft məhsulları, meyvə-tərəvəz, plastik kütlə, alüminium və ondan hazırlanan məmulatlar, qara metallar və onlardan hazırlanan məmulatlar, şəkər, kimya sənayesi məhsulları, pambıq ipliyi, bitki yağları üstünlük təşkil edib.

- 2016-cı ilin yanvar-avqust aylarında 2015-ci ilin eyni dövrü ilə müqayisədə təzə meyvə ixracı 29,2 faiz, təzə tərəvəz – 43,5 faiz, kartof – 4,5 faiz, polietilen – 1,8 faiz, qara metallardan borular – 4,7 dəfə, pambıq ipliyi – 33,4 faiz artmış, şəkər ixracı isə 48,3 faiz, bitki yağları – 57,8 faiz, çay – 68,9 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar – 90,9 faiz, emal olunmamış alüminium – 17,5 faiz azalıb.

- 2016-cı ilin yanvar-avqust aylarında qeyri-neft məhsullarının ixracı 2015-ci ilin eyni dövrü ilə müqayisədə 25,3 faiz azalaraq 742,7 milyon dollara bərabər olmuş və ixracın ümumi dəyərinin 12,8 faizini təşkil etmişdir.

-

# Tövsiyyələr

- İqtisadiyyatın liberallaşdırılması, ticarətin açıqlığı və sahibkarlığın təşviqi sahəsində islahatlar hazırda hazırlanan  Stateji Yol Xəritəsinin aparıcı xəttini təşkil etməlidir.
- Dövlətin sağlam rəqabətin dəstəklənməsi sahəsində hüquqi sistemini inkişaf etdirmək üçün  Milli Məclis "Rəqabət Məcəlləsi"nin qəbulunu sürətləndirməlidir.
- Qeyri-neft ixracatının stimullaşdırılması məqsədilə xarici bazarlara çıxışı olan şirkətlərin xərclərinin əsas hissəsi uzun müddətli ixracat kreditləşməsi vasitəsilə maliyyələşdirilməlidir.
- Anti-inhisarçılıq fəaliyyəti gücləndirilməli, korrupsiya ilə mübarizə sürətlənməli, korporativ idarəetmə modeli əsasında hesabatlılıq və şəffaflıq artırılmalıdır.
- Dövlətin iqtisadiyyatda rolunun azaldılması üçün  dövlət mülkiyyətinin özəlləşdirməsi davam etdirilməli və bu tədbirlər  açıq tenderlər vasitəsilə reallaşdırılmaldır.
- Regionların sosial-iqtisadi inkişafına nail olmaq üçün iqtisadi regionlar arasında rəqabət mühiti təmin edilməli, fiskal və inzibati  əks mərkəzləşdirmə gücləndirməlidir.
- Innovativ və bilik iqtisadiyyatının bazasında milli iqtisadiyyat modernləşdirilməli, ölkəyə qabaqcıl təcrübənin, yeni texnika və texnologiyaların gətirilməsi, nou-houların və patentlərin cəlb edilməsi  stimullaşdırılmaldır.
- Maliyyə-bank sektorunun sağlamlaşdırılması üçün bankların kapitalının təmərküzləşdirilməsi, və çevik məzənnə siyasətinin aparılması sahəsində  tədbirlər davam etdirilməlidir.

# Diqqətiniz üçün təşəkkür edirəm.